YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 dekabr 2025-ci il, cümə
№ 227 (7054)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Ayrılmadı könül candan...



## Ruhun şad olsun, Ulu Öndər!

## Bu il Zəfərimizin 5 yaşını qeyd etdik

## Səndən başlayan ZƏFƏR YOLU davam edir və davam edəcək!

Bax səh. 3

## H.R.6534 saylı qanun layihəsi...

### Tarixi ədalətsizliyə son qoyulmalıdır

Bax səh. 4



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş keçirilib



## Azərbaycanın BMT-də növbəti uğuru

Bax səh. 5

### Azərbaycan-ABŞ münasibətlərində mühüm faza: sülh və təhlükəsizlik...

Bax səh. 5

### Dayanıqlı inkişaf hədəflərinə doğru

Bax səh. 5

### Münasibətlərin inkişafı üçün yeni imkanlar...

Bax səh. 5

### ABŞ hökuməti uçot faizlərini endirdi

Bax səh. 6

### Cəmil Həsənlinin məntiqinə "2" düşür

Bax səh. 6

# Qardaş Türkmənistana uğurlar...







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlətimizin başçısı Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Qurbanqulu Berdiməhəmmədovu təbrik edib və qardaş Türkmənistana uğurlar arzulayıb.

Prezident İlham Əliyev dekabrın 12-də Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin anım gününün keçirildiyini deyərək, Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü ilə bağlı keçirilən tədbirlərdə iştirak edə bilməyəcəyini bildirib, həmin tədbirlərdə Azərbaycanın Baş nazirinin iştirak edəcəyini vurğulayıb.

Bir neçə gün əvvəl Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərinə toxunan dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinə göstərilmiş diqqət və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyev Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondu arasında imzalanmış Anlaşma Memorandumunu əməkdaşlığımızın növbəti göstəricisi kimi qiymətləndirib.

Azərbaycan Prezidenti ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olmasında Türkmənistanın birmənalı və tam dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı salamlarını və Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə təbriklərini Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov telefon zənginə və salamlara görə minnətdarlığını bildirib.

Qurbanqulu Berdiməhəmmədov Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı başsağlığını çatdıraraq, onun böyük şəxsiyyət olduğunu və xatirəsini dərin hörmətlə andığını vurğulayıb. Türkmənistan Xalq Məsləhətinin sədri Ümummilli Liderin ölkələrimiz arasında əlaqələrin inkişafında böyük rolunun olduğunu qeyd edib.

O da öz növbəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərini, Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva ilə görüşünü çox yüksək qiymətləndirərək imzalanmış sənədin böyük əhəmiyyət daşıdığını deyib.

Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olması münasibətilə təbriklərini çatdıraraq, Türkmənistanın həmişə bu məsələni dəstəklədiyini vurğulayıb.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

# Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uillyam Samoei Rutoya



Hörmətli cənab Prezident,

Keniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin inkişafına, müxtəlif sahələrdə, xüsusilə də energetika, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlığımızın genişlənməsinə böyük önəm veririk.

Sentyabr ayında Nyu-Yorkda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq əlaqələrimizin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın dərinləşməsinə nail olacağıq.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan-ABŞ münasibətlərində mühüm faza: sülh və təhlükəsizlik...

## İlham Əliyev: Davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcək

Sülh bəşəriyyətin ən ali dəyəri, dünyanın xilası üçün ən fundamental şərtdir. Qlobal miqyasda təhlükəsizliyə yönəlik təşəbbüslər, münaqişələrin qarşısının alınması və dövlətlərarası əməkdaşlığın gücləndirilməsi hər zaman yüksək qiymətləndirilib. Bu gün dünyada baş verən proseslər, güc mərkəzləri arasında artan gərginlik və regional müharibələrin yaratdığı təhdidlər sülhün nə qədər vacib olduğunu bir daha göstərir. Belə bir şəraitdə Azərbaycan 30 ildən artıqdır ki, regional sabitlik və əməkdaşlıq gündəliyinin fəal iştirakçısı kimi çıxış edir. Ölkəmiz həm regionda sülhün bərqərar olması, həm də qlobal əməkdaşlıq mexanizmlərinin güclənməsi istiqamətində ardıcıl təşəbbüslər irəli sürür, siyasi dialoq və qarşılıqlı etimadın təşviqinə töhfə verir.

Azərbaycanın sülhpərvər siyasəti yalnız regional çərçivə ilə məhdudlaşmır. Rəsmi Bakı beynəlxalq arenada sülh təşəbbüslərinə, qlobal təhlükəsizliyə xidmət edən liderlərin fəaliyyətinə obyektiv yanaşır və bu səyləri dəyərləndirir. Məhz bu kontekstdə ABŞ Prezidenti Donald Trampın cəmisi 1 il ərzində həyata keçirdiyi sülhpərvər addımlar Azərbaycanda yüksək qiymətləndirilib. Trampın müxtəlif regional böhranların azaldılması, qlobal gərginliklərin yumşaldılması və dövlətlərarası dialoqun gücləndirilməsi istiqamətində atdığı addımlar nəzərə alınaraq, Azərbaycan onu Nobel Sülh Mükafatına namizəd olaraq irəli sürüb. Bu addım yalnız Trampın fəaliyyətinə verilən qiymət deyil, eyni zamanda, Azərbaycanın sülhə, təhlükəsizliyə və beynəlxalq əməkdaşlığa verdiyi böyük dəyərin bariz göstəricisidir.

### Bakıdan Vaşinqtona: sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsi...

Azərbaycanın bu təşəbbüsü beynəlxalq ictimaiyyətə açıq mesajdır: sülhün təşviqi və münaqişələrin aradan qaldırılması bəşəriyyət üçün ən vacib missiyadır. Dövlətimiz özünəməxsus şəkildə göstərir ki, qlobal səylərə dəstək vermək, sülh yönümlü siyasəti olan liderləri dəyərləndirmək, beynəlxalq dialoqu gücləndirmək XXI əsrin əsas prioritetlərindən biridir. Bu həm Azərbaycanın sülh fəlsəfəsinə sadiqliyinin, həm də gələcək təhlükəsiz dünya düzəni naminə göstərdiyi prinsipial mövqenin təzahürüdür. Bunu beynəlxalq aləm də görür və dəyərləndirir - təsadüfi deyil ki, bir neçə gün öncə, dekabrın 6-da ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlamışdı. ABŞ Prezidenti məktubunda Azərbaycan Prezidentinə onun Nobel Sülh Mükafatına namizədliyini irəli sürmək üçün məktubuna görə təşəkkür edib və bildirib ki, "bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq".

Prezident İlham Əliyev də ABŞ Prezidentinə məktub ünvanlayıb. Dövlət başçısı səmimi məktuba görə təşəkkür edib və bildirib ki, xoş sözləri, sülh və sabitlik naminə səylərə dair fikirləri yüksək qiymətləndirir: "Münaqişələrin həllinə davamlı sadiqliyiniz, dialoqun irəlilədilməsində şəxsi iştirakınız və dünyanın müxtəlif bölgələrində gərginliyin azalmasına verdiyiniz töhfələr qəti inamıma görə, Nobel Sülh Mükafatı da daxil olmaqla, ən yüksək beynəlxalq tanınmaya tam layiqdir. Sizin qətiyyətiniz və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir. Əminəm ki, davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcəkdir. Məktubunuzda ifadə olunan qarşılıqlı hörmət ruhuna və diqqətinizə görə səmimi minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm".



Azərbaycan ilə Donald Trampın sülh yanaşmalarında mühüm uyğunluqlar diqqəti cəlb edir - bu fakt hətta son aylarda müxtəlif beynəlxalq platformalarda açıq şəkildə özünü göstərib. Avqust ayında keçirilən üçtərəfli danışıqlar zamanı, eləcə də Misirdə təşkil olunan Qlobal Sülh Sammitində və Nyu Yorkda baş tutan BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində də Trampın fikirləri tam şəkildə ortaya qoyulub. Bu mövqe göstərir ki, Bakı və Vaşinqton arasında sülh və təhlükəsizlik sahəsində formalaşan yeni əməkdaşlıq xətti getdikcə daha sistemli xarakter alır. Bu da təsadüfi deyil. Azərbaycan uzun illərdir regionda sabitliyi təşviq edən, münaqişələrin aradan qaldırılmasına yönəlmiş təşəbbüslər irəli sürən dövlət kimi tanınır. 44 günlük müharibədən sonra formalaşmış yeni reallıq,

### Azərbaycan ilə ABŞ-ın qlobal təhlükəsizliyə baxışları üst-üstə düşür...

regionda açılan kommunikasiyalar, təhlükəsizlik formatlarının yenidən qurulması və əməkdaşlıq məkanının genişlənməsi Azərbaycanın sülh siyasətini daha da aktuallaşdırıb. Trampın bu siyasəti müsbət qiymətləndirməsi və Azərbaycanla paralel addımlar atacağını bəyan etməsi ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

### Qarşılıqlı etimad əməkdaşlığı yeni mərhələyə daşıyır...

Sülh platformasında iki ölkənin mövqeyinin paralel inkişafı ABŞ ilə Azərbaycan arasında yalnız diplomatik sahədə deyil, strateji istiqamətlər üzrə də yeni əməkdaşlıq imkanları yaradır. Xüsusilə enerji təhlükəsizliyi və logistika sahəsində Azərbaycan ABŞ üçün vacib tərəfdaşdır. Cənub Qaz Dəhlizi, Xəzər hövzəsi enerji resursları və Azərbaycan vasitəsilə Şərqdən Qərbə uzanan nəqliyyat layihələri qlobal təhlükəsizlik sisteminin mühüm elementlərindən sayılır. Bu baxımdan Trampın hər zaman qlobal sülhlə bağlı nitqlərində Azərbaycana xüsusi yer ayırması, Bakının sülhpərvər mövqeyini vurğulaması, Prezident İlham Əliyevin fenomenal liderlik bacarığını ön plana çəkməsi tərəflər arasında əməkdaşlığın daha da dərinləşəcəyinə işarədir.

Yeni nizamın mənzərəsi göz önündədir - yeni dövrdə qlobal təhlükəsizlik gündəliyinin dəyişməsi, münaqişələrin daha mürəkkəb xarakter alması və enerji-logistika xəttinin geosiyasi əhəmiyyətinin artması Azərbaycan-ABŞ dialoqunun güclənməsini zəruri edir. Məhz bu səbəbdən, tərəflərin sülh təşəbbüslərində uzlaşması yalnız regional maraqlar üçün deyil, həm də qlobal miqyasda sabitlik üçün əhəmiyyətli haldır. ABŞ-ın Cənubi Qafqazda və Yaxın Şərqdə həyata keçirdiyi sülh təşəbbüslərinin Azərbaycan tərəfindən dəstəklənməsi, eyni zamanda, Azərbaycanın regionda sabitləşdirici missiyasının Vaşinqton tərəfindən tanınması iki ölkənin qarşılıqlı etimadını artırır.

*Pərviz SADAYOĞLU*



# Ayrılmadı könül candan... Ruhun şad olsun, Ulu Öndər!

## Bu il Zəfərimizin 5 yaşını qeyd etdik

## Səndən başlayan ZƏFƏR YOLU davam edir və davam edəcək!

Elə tarixi şəxsiyyətlər var ki, cismən əbədiyyətə qovuşsalar da, əbədiyaşarlıq qazanırlar, xalq və dövlət onların əməllərindən, parlaq ideyalarından hər zaman bir mayak kimi bəhrələnir. Hər bir azərbaycanlının xatirəsinə böyük ehtiram bəslədiyi dahi insan Heydər Əliyev kimi.

Tarixin bu günündə - 2003-cü il dekabrın 12-də Azərbaycana Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasından acı xəbər gəldi. Həmin xəbərdə adı müasir tariximizə qızıl hərflərlə yazılan, müstəqil Azərbaycanın möhkəm təməlini yaradan, bizləri heç vaxt dəyərini itirməyəcək azərbaycançılıq ideologiyası, gələcək inkişaf konsepsiyası ilə silahlandıran Ulu Öndər Heydər Əliyevin vəfat etdiyi bildirilirdi. Xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq Ümummilli Liderimiz dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olundu. Həmin gün Bakı küçələri insan selinə qərq olmuşdu. Üzlərdə, baxışlarda, qəlblərdə ağır hüzn var idi. Hər bir azərbaycanlı milli qürur simvoluna çevrilmiş Heydər Əliyevə son borcunu verməyə tələsirdi.

Vəfatından 22 il ötməsinə baxmayaraq, bu gün də Heydər Əliyev düşüncələrimizdə və qəlbimizdədir. Ötən illər Onu bizdən əsla uzaqlaşdırmır, əksinə zaman keçdikcə Ulu Öndərin Azərbaycan naminə gördüyü işlərin miqyası daha aydın şəkildə dərk olunur.

### Keçmiş sovet rejiminin ideoloji buxovlarını sındıran tarixi şəxsiyyət

Tarixdə şəxsiyyət-liderlərin rolu mövzusu həmişə aktual olub. Ayrı-ayrı ölkələrin təcrübəsindən, keçdikləri yoldan bəlli olduğu kimi, parlaq zəkası, cəsarəti, digər müstəsna keyfiyyətləri ilə xalqın inam və güvənc yerinə çevrilən liderlər həmişə cəmiyyətə yeni ideyalar ötürüblər, ən çətin anlarda belə insanları ümidsizliyə qapılmağa qoymayıblar, onları milli məfkurə ətrafında birləşdiriblər, mübarizəyə ruhlandırıblar. Sözün geniş mənasında liderlər zamanın məhdud çərçivəsinə sığmayaraq zəruri hallarda tarixin axarını dəyişməyi bacarırlar.

Azərbaycan üçün belə əvəzolunmaz sima misilsiz fəaliyyəti ilə xalqımızın ümummilli lideri səviyyəsinə yüksələn Heydər Əliyevdir. Ümummilli lider Heydər Əliyev barəsində söhbət açanda ilk növbədə Onun müdrikliyi və milli təəssübləşliyi, xalqına bağlılığı yada düşür. O, uzaqgörən olduğu qədər də milli təəssübkeş idi, bu Vətənin, bu xalqın oğlu olduğuna görə sonsuz qürur duyurdu.

Məlumdur ki, Heydər Əliyev Azərbaycana bir-birindən fərqli qütblərdə dayanan iki ideoloji formasiyada rəhbərlik edib. Lakin şərait, ideoloji tələblər müxtəlif olsa da, Heydər Əliyevin milli ruhu və uzaqgörənliyi Onun Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə - istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində respublikamızın böyük uğurlar əldə etməsinə yol açıb. Keçmiş sovet dövrü milli respublikalar, o cümlədən də Azərbaycan üçün bir sıra qadağalarla səciyyələnirdi. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxardaraq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Ulu Öndərin milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli-mədəni irsin xalqın özünüdərk hissinin yüksəlməsində rolunu yüksək qiymətləndirən Heydər Əliyev ənənələrin qorunub saxlanılmasını, Bakıda ədəbiyyat və incəsənət xadimlərinə abidələrin ucaldılmasını, klassik şair və yazıçıların əsərlərinin çapını daim diqqət mərkəzində saxlayırdı ki, bütün bunlar da insanlarda milli mənsubiyyətə görə sonsuz qürur yaradırdı. Məhz Heydər Əliyevin milli təəssübkeşliyinin nəticəsi idi ki, Azərbaycan dili respublikamızda konstitusiya ilə dövlət dili statusu qazandı.

Ümummilli Liderin zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi və mədəni əsaslarına çevrildi. Bu zəngin irsdən kənarda müstəqil respublikamızın nə iqtisadiyyatını, nə də mədəniyyətini təsəvvür etmək mümkün deyil. Prezident İlham Əliyev Azərbaycanın sovet hakimiyyəti illərində müstəqil olmasa da, inkişaf etdiyini, ələlxüsus da ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandığını məmnunluq hissi ilə diqqətə çatdıraraq vurğulayıb: "70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır".

### Cəsarət və milli təəssübkeşlik fədaisi

Öndər öndər Heydər Əliyevin həyat və fəaliyyətini qısa şəkildə səciyyələndirsək, bu böyük insanın ömrünün bütünlüklə xalqına, Vətəninə bağlandığı fikrini qətiyyətlə ifadə edə bilərik. Onun həyatı cəsarət nümunələri-ən kritik məqamlarda belə gözləmə mövqeyi tutmadan Azərbaycan üçün zəruri olan addımları atması, taleyüklü qərarlar qəbul etməsi kimi məqamlarla zəngindir. 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıda törədilən qanlı faciəni xatırlayaq. 20 Yanvar qətliamı imperiya qüvvələri tərəfindən törədilmişdi. Hadisələrin birbaşa günahkarları olan keçmiş ittifaqın rəhbərliyi Bakıda törədilən qırğın barədə xəbərlərin imperiyanın özündə və sərhədlərindən kənara yayılmasının qətiyyən istəmirdi və bu məqsədlə repressiv tədbirlərə əl atılırdı. Belə vəziyyətdə Heydər Əliyev heç nədən çəkinməyərək, Özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, Bakıda törədilən qırğını qətiyyətlə pislədi. Ulu Öndər bu cəsarətli addımı ilə bir tərəfdən imperiya qüvvələrinə meydan oxudu, digər tərəfdən isə Azərbaycan ətrafında informasiya blokadasını yardı, xalqına böyük təsəlli vermiş oldu.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyalarında da böyük cəsarət nümayiş etdirərək Dağlıq Qarabağla, respublikamızın müstəqilliyi ilə bağlı fikirlərini açıq şəkildə dilə gətirdi. Ulu Öndər təzyiqlərə baxmayaraq sonrakı illərdə də müstəqillik ideyalarının müdafiəsində dayandı. 1991-ci il martın 17-də keçmiş sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referendumu yada salaq. Respublikanın o vaxtkı rəhbərlərinin loyallığının, qətiyyətsizliyinin, müstəqillik ideyalarından uzaq olmalarının nəticəsi idi ki, Azərbaycan da həmin referenduma qoşuldu. Lakin burada da Heydər Əliyev nə qədər qətiyyətli olduğunu nümayiş etdirdi. Ulu Öndər Naxçıvanın referendumda iştirak etməməsi ilə bağlı çağırış etdi və keçmiş ittifaqın, Azərbaycanın sabiq rəhbərliyinin təkidlərinə, hədə-qorxularına rəğmən bu çağırışını geri götürmədi. Beləliklə də, Naxçıvan saxta referenduma qoşulmadı.

Heydər Əliyev yox, başqa kim imperiyanın mövcudluğu şəraitində belə cəsarətli addımlar ata bilərdi? Sualın cavabı bəllidir: Heç kim! Bunu ancaq cəsarət və milli təəssübkeşliyin zirvə nöqtəsində qərar tutan Heydər Əliyev edə bilərdi və etdi də!

### Naxçıvandan başlayan və bütün ölkə miqyasında davam etdirilən müstəqillik mücadiləsi

Qeyri-sağlam məntiqlə keçmiş ittifaq rəhbərliyindən uzaqlaşdırılan Heydər Əliyev həyatının sonrakı mərhələsində əvvəlcə blokada şəraitində olan Naxçıvanda, sonra isə bütün ölkə miqyasında müstəqillik mücadiləsi apardı. Məlumdur ki, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına Heydər Əliyev Sədrlik edirdi. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Xatırladaq ki, həmin dövrdə hələ Sovet İttifaqı kommunist partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən, Özü və ailəsi üçün yarana biləcək təhlükələrdən çəkinməyərək respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra - 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyev Özünün şəxsi nüfuzundan və yüksək diplomatik bacarığından istifadə edərək qonşu Türkiyənin, İranın siyasi rəhbərliyi ilə təmasları gücləndirdi və blokada şəraitində yaşayan muxtar respublikanı erməni təcavüzündən, aclıqdan, səfalətdən qorudu. Eyni zamanda, Heydər Əliyev xalqda müstəqillik uğrunda mübarizə əzmini möhkəmləndirməyə çalışırdı.

Müstəqilliyimizin ilk illərinin mənzərəsini göz önündə canlandıranda Heydər Əliyev dühasının hüdudsuzluğu, Onun Bakıya qayıdışının və paytaxtda ölkəyə rəhbərliyə başlamasının nə qədər böyük məna kəsb etdiyi barədə konkret təsəvvür yaranır. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində bütövlükdə Azərbaycanda çox ağır vəziyyət hökm sürürdü. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz ciddi təhdidlərlə üz-üzə qalmışdı. Problemlər getdikcə artır, xaos dərinləşirdi. Hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarəti itirən ozamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Belə ağır məqamda insanlar təkidlə Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb edirdilər. Heydər Əliyev həmin ağır günlərdə xalqını tək buraxmadı və respublikamızın rəhbərliyinə qayıtmağa razılıq verdi. O, iyunun 9-da Bakıya gəldi. Heydər Əliyev 13 iyunda parlamentdə çıxış etdi, Gəncəyə gedib oradakı vəziyyətlə tanış oldu. 15 iyunda isə Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Beləliklə, respublikamız diletant, naşı və həris insanların hakimiyyətindən qurtuldu. Azərbaycanın sabitlik və inkişafla səciyyələnən qurtuluş tarixi başladı.

Azərbaycan xalqının böyük etimadı əsasında Heydər Əliyev ilk dəfə 1993-cü il oktyabrın 3-də, sonra isə1998-ci il oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdəki fəaliyyəti, heç şübhəsiz ki, dövlət quruculuğunun bütün istiqamətlərini əhatə edirdi. Prezident İlham Əliyev ölkəmizin real müstəqilliyinin əsasının 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladaraq vurğulayıb: "1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan deməkolar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir".

### Heydər Əliyev yolu ilə tarixi zəfərlərə

1993-cü ildən başlayan qurtuluş yolu ilə inamla irəliləyən Azərbaycan böyük uğurlara imza atıb. Bu uğurların təməlində dayanan əsas amil isə Heydər Əliyevin əsasını qoyduğu siyasətin son 22 ildə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsidir. Prezident İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı statusunda fəaliyyətə başlayarkən bəyan etdi ki, Onun üçün bundan sonra əsas vəzifə Heydər Əliyev siyasətini davam etdirmək olacaq. O, verdiyi vədə sadiq qalaraq Ulu Öndərin əsasını qoyduğu siyasəti həm yüksək səviyyədə davam etdirib, həm də müasir çağırışları nəzərə alaraq yeni çalarlarla daha da zənginləşdirib.

Azərbaycanda Heydər Əliyevin əsasını qoyduğu siyasətin dövlətimizin başçısı tərəfindən məqsədyönlü şəkildə davam etdirilməsi ölkəmizin bugünkü müsbət reallıqlarını yaradıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır.

Heydər Əliyevin əsasını qoyduğu siyasətin varisliyinin təmin olunması sayəsində respublikamız özünün iqtisadi müstəqilliyini və bu əsasda siyasi müstəqilliyini tam təmin edib. Bu gün Azərbaycan heç bir kənar gücdən asılı deyil, beynəlxalq səviyyədə özünün milli maraqlarını qətiyyətlə qoruyur. Qısa müddətdə respublikamız regionun lider dövlətinə çevrilib. Eyni zamanda, dünyada Prezident İlham Əliyevin beynəlxalq həmrəyliyin möhkəmlənməsini hədəfləyən təşəbbüsləri, ölkəmizin mövqeyi nəzərə alınaraq qəbul olunur.

Müstəqil Azərbaycanın ən böyük uğurları isə heç şübhəsiz ki, 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində şanlı zəfərlər qazanmasıdır. Bu qələbələr sayəsində respublikamız ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edib. Bu gün respublikanın bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirilir, artıq Böyük Qayıdışa start verilib. Bütün bunlar isə müstəqil Azərbaycanın gücünü və qüdrətini nümayiş etdirir. Vətən müharibəsində qazanılan tarixi qələbənin 5-ci ildönümündə də biz Heydər Əliyevin xatirəsini böyük ehtiramla anırıq. Çünki dövlətimiz, Prezident İlham Əliyev məhz Ulu Öndərin ideyalarına sadiq qalmaqla, Onun yolunu davam etdirməklə xalqımızı haqqı çatdığı zəfərlərə qovuşdurdu. Bu qələbələr, Şuşanın, digər ərazilərimizin azad edilməsi Heydər Əliyevin ən böyük arzusu idi və O, buna möhkəm inanırdı. İlham Əliyev xoşbəxt Liderdir ki, Ata vəsiyyətini yerinə yetirib.

*Mübariz ABDULLAYEV*

# YAP Mərkəzi Aparatında görüş keçirilib





Dekabrın 11-də Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin təşəbbüsü ilə Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair məlumatları bölüşmək məqsədilə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında görüş keçirilib.

Görüşdə partiyanın İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar, YAP Mərkəzi Aparatının əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib. O, Prezident İlham Əliyevin cari ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək iqtisadi-ticari, enerji təhlükəsizliyi, nəqliyyat-logistika, elm və texnologiya, təhsil, mədəniyyət, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini və yüksəksəviyyəli dialoqun uğurla davam etdirildiyini vurğulayıb.

YAP Sədrinin müavini Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolunu qeyd edib. O, 2024-cü ilin noyabr ayında YAP ilə ÇKP-nin Əməkdaşlıq memorandumu imzalamasının önəmini diqqətə çatdıraraq dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində təmasların intensiv xarakter daşıdığını vurğulayıb, qarşılıqlı səfərlərin münasibətlərin mövcud durumunun dəyərləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

YAP ilə ÇKP-nin Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmində olduqlarını bildirən Tahir Budaqov səfir Lu Meyin təşəbbüsü ilə keçirilən görüşün qarşılıqlı fikir və təcrübə mübadiləsinin gücləndirilməsi baxımından son dərəcədə əhəmiyyətli olduğunu qeyd edib.

Səfir Lu Mey Azərbaycanla Çin arasında əlaqələrin bütün sahələr üzrə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib. O, hakim partiyalar arasında imzalanan Əməkdaşlıq memorandumu çərçivəsində görülən işlərin həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqları təmin etdiyini bildirib.

Daha sonra Lu Mey ÇKP Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair geniş məlumat verib. O bildirib ki, 2026-2030-cu illəri əhatə edəcək strateji plan bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan Çin xüsusiyyətli sosializm konsepsiyasının mühüm tərkib hissəsi olmaqla ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafına hədəflənib.

Səfir, həmçinin Çinin dövlət idarəetməsinin təkmilləşdirilməsi sahəsində yeniliklərdən və partiya quruculuğu təcrübəsindən bəhs edib.

İnteraktiv formada davam edən görüşdə tədbir iştirakçılarının qarşılıqlı maraq doğuran məsələlərə dair sualları cavablandırılıb.

# H.R.6534 saylı qanun layihəsi...

## Tarixi ədalətsizliyə son qoyulmalıdır

**Son 11 ayda ABŞ-Azərbaycan münasibətləri yeni və daha dinamik mərhələyə qədəm qoyub. Cənubi Qafqazda əbədi sülhün təmin olunması istiqamətində aparılan danışıqlarda tərəflərin mövqelərinin yaxınlaşması, eləcə də qlobal təhlükəsizlik proseslərinə birgə töhfə verilməsi Bakı ilə Vaşinqton arasında yeni siyasi dialoq mühitinin formalaşmasına səbəb olub. Bu dialoq həm regional sabitlik, həm də beynəlxalq təhlükəsizlik arxitekturasının gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. ABŞ Azərbaycanın regionda sabitləşdirici rolunu və geostrateji əhəmiyyətini daha aydın şəkildə dəyərləndirir - verilən qərarlar, ortaya qoyulan münasibət bunu təsdiqləyir. Azərbaycan isə öz növbəsində qlobal və regional proseslərdə tərəfdaşlıq imkanlarını genişləndirməyə çalışır. Bu əməkdaşlıq xətti yalnız mövcud əlaqələrin gücləndirilməsi ilə məhdudlaşmır, həm də tarixi münasibətlərin yenidən nəzərdən keçirilməsini zəruri edir. Belə bir şəraitdə ABŞ Konqresi tərəfindən 1992-ci ildə "Azadlığı müdafiə aktı"na əlavə edilən və Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan edən qanunvericilik aktının, başqa sözlə, "907-ci düzəliş"ə yenidən baxılması məsələsi aktuallaşıb. Regional reallıqların tam dəyişdiyi, Azərbaycanın qlobal enerji təhlükəsizliyində, antiterror fəaliyyətində və sülh təşəbbüslərində mühüm tərəfdaş kimi tanındığı bir dövrdə bu düzəlişin saxlanılması artıq reallıqlara uyğun gəlmir. Buna görə də iki ölkə arasında yaranan yeni qarşılıqlı etimad mühiti bu tarixi ədalətsizliyə son qoyulmasını qaçılmaz etməkdədir.**

## 907-ci düzəlişin ləğvi üçün...

Təsadüfi deyil ki ABŞ Konqresinə Azərbaycana yardımla bağlı məhdudiyyətlərin ləğvini nəzərdə tutan qanun layihəsi təqdim edilib. Bu barədə Konqresinin saytında qeyd olunub. "9 dekabr 2025-ci ildə ABŞ Nümayəndələr Palatasına H.R.6534 saylı qanun layihəsi təqdim olunub. Layihə Azərbaycana yardım göstərilməsinə dair məhdudiyyətlərin ləğvini nəzərdə tutur. Qanun layihəsinin təşəbbüskarı Respublikaçılar Partiyasından Florida ştatını təmsil edən konqresmen Luna Anna Paulinadır", - deyə məlumatda vurğulanır. Qeyd edək ki, layihə baxılması üçün Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə göndərilib.

Xatırladaq ki, bu ilin avqust ayında ABŞ Prezidenti Donald Tramp tərəfindən "Azadlığa dəstək qanununa" 907-ci düzəlişin tətbiqinin müvəqqəti olaraq dayandırılması ilə bağlı sərəncam imzalanmışdı. Prezidentin qərarında qeyd olunurdu ki, bu addım ABŞ-ın beynəlxalq terrorizmə qarşı səylərinin dəstəklənməsi üçün vacibdir və ABŞ Silahlı Qüvvələrinin və koalisiya tərəfdaşlarının hazırlığını dəstəkləyir. Eləcə də, vurğulanırdı ki, bu qərar Azərbaycanın sərhəd təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır - Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarını zəifləmir və Ermənistan əleyhinə istifadə olunmayacaq.

## Trampın qərarı...

Nəzərə alsaq ki, Trampın 907-ci düzəlişin dayandırılması ilə bağlı qərarı bu ilin avqustun 8-də imzalanıb, bu bir daha, Vaşinqton görüşünün Azərbaycan ilə ABŞ arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı olduğunu təsdiqləyir. Son aylarda Bakı - Vaşinqton əlaqələrində intensivliyin yaşanması, dinamizmin müşahidə olunması, hətta ABŞ Konqresində Azərbaycanla bağlı yanaşmanın dəyişməsi münasibətlərdə yeni siyasi formatın formalaşdığının göstəricisidir. Əvvəllər Vaşinqton bölgəyə daha çox vasitəçi mövqeyi ilə yanaşırdısa, indi Azərbaycanla bərabərhüquqlu strateji tərəfdaşlıq müstəvisində əməkdaşlıq modelinə keçid müşahidə olunur. Bu, həm də onu göstərir ki, ABŞ Cənubi Qafqazda sabitliyi təmin edən yeganə real güc kimi məhz Azərbaycanın rolunu qəbul edib.



## Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası...

Qeyd edək ki, rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən sözügedən düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Sonradan isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürüldü və erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edildi. 11 sentyabr 2001-ci ildə terror aktından sonra Konqres prezidentə düzəlişi ləğv etmək hüququ verən qanun qəbul etdi. Cozef Baydenin ABŞ prezidenti seçilməsinin ardından isə rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən bu düzəliş ləğv edilmədi.

Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır, ABŞ-ın Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünü özündə ifadə edir. 907-ci düzəlişin ləğvi Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması deməkdir. ABŞ-ın bu addımı onu göstərir ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçir.

## Azərbaycan - ABŞ münasibətlərinin yeni inkişaf xətti...

Beləliklə, ABŞ-ın Cənubi Qafqazda sülhün dəstəklənməsi, kommunikasiya xətlərinin açılmasına müsbət yanaşması, regional təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərdiyi siyasi iradə Azərbaycan - ABŞ münasibətlərinin yeni inkişaf xəttini formalaşdırır. Bu dəyişikliklərin fonunda 907-ci düzəlişin ləğvi regiondakı real münasibətlər sistemini bir az da irəliyə daşıyacaq. Sirr deyil ki, günümüzün regional dinamikası ğamam fərqli konturlara əsaslanır: Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin aparıcı iştirakçısı və Cənubi Qafqazda sülh gündəliyinin əsas aparıcı qüvvəsidir. ABŞ-ın da bu reallığı qəbul etməsi 907-ci düzəlişin aradan qaldırılmasını daha aktual edir.

Düzəlişin ləğvi yalnız siyasi jest deyil, həm də regionda inkişaf tempinə yeni nəfəs verəcək addım kimi dəyərləndirilməlidir. Cənubi Qafqazda dayanıqlı sabitliyin qurulması, münaqişə dövrünün qalıqlarının aradan qaldırılması və inteqrasiya prosesinin sürətlənməsi üçün bu addımın böyük təsiri olacaq. Xüsusilə Zəngəzur dəhlizinin açılması regional iqtisadi əməkdaşlığı yeni mərhələyə daşıyacaq və Şərq-Qərb nəqliyyat xəttində yeni strateji imkanlar yaradacaq.

## ABŞ-ın Cənubi Qafqazda formalaşan yeni reallıqlara dəstəyi...

907-ci düzəlişin ləğvi həm regional, həm də ikitərəfli siyasi dialoqun gücləndirilməsində, regionda əməkdaşlığın stimullaşdırılmasında və Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirməsində əsaslı rola malik ola bilər. Bu addım həm tarixi ədalətsizliyi aradan qaldıracaq, həm də ABŞ-ın Cənubi Qafqazda yeni reallıqlara dəstəyini gücləndirəcək. Nəticə etibarilə, Bakı ilə Vaşinqton arasındakı münasibətlərin gücləndirilməsi, 907-ci düzəlişin ləğvi və regional əməkdaşlıq layihələrinin reallaşması Cənubi Qafqazın gələcək inkişaf xəttini müəyyənləşdirəcək əsas elementlərdəndir. Bu proses həm Azərbaycan, həm də ABŞ üçün qarşılıqlı fayda və strateji üstünlüklər yaradır.

***P.İSMAYILOV***

# Dayanıqlı inkişaf hədəflərinə doğru

Azərbaycanda Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkənin daxili və xarici siyasətinin effektivliyinin artmasına davamlı töhfələr verir. Belə ki, Fond respublika daxilində təhsil, mədəniyyət, səhiyyə kimi sahələrdə çoxsaylı layihələr həyata keçirir və bununla da sosial siyasətin əhatə dairəsinin genişlənməsində mühüm rol oynayır.

Eyni zamanda, Fondun ayrı-ayrı ölkələrin müvafiq qürumları ilə əlaqələrini genişləndirməsi beynəlxalq səviyyədə ölkəmizin nüfuzunun artmasına müsbət təsir göstərir. Elə bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Türkmənistanın Türkmənbaşı şəhərindəki "Avaza" Milli Turizm Zonasında "Müasir cəmiyyətdə qadınların rolu: Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığın inkişafı" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.




## Gender bərabərliyinin, davamlı inkişafın qlobal gündəminin təbliği

Hazırda dünya bir sıra ciddi çağırışlarla üz-üzədir. BMT-nin bəyan etdiyi Davamlı İnkişaaf Məqsədlərinə nail olunması böyük dərəcədə daha çox ölkənin bu çağırışları qarşılamağı hədəfləyən fəaliyyətlərə qoşulmasından və ümumi məqsədlərə töhfə verməlarindən asılıdır. Ötən il COP29 iqlim konfransına böyük uğurla ev sahibliyi etməklə və substantiv nəticələrə nail olmaqla Azərbaycan qlobal çağırışlara son dərəcə həssas yanaşdığını növbəti dəfə təsdiqləmiş oldu.

Azərbaycan, həmçinin hazırda dünyada aktuallığı artan gender bərabərliyinin qorunmasına, müxtəlif sahələrdə qadınların rolunun artırılmasına güclü siyasi iradə nümayiş etdirir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın qatıldığı konfrans da qadınların rolunun gücləndirilməsi və davamlı inkişafın qlobal gündəminin təbliği sahəsində mühüm təşəbbüslərin müzakirəsi üçün beynəlxalq təşkilatların nümayəndələrini və ekspertləri bir araya gətirib.

Tədbirin açılışında çıxış edən Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva təşkil olunan konfransın humanizmə sadiqlik ideyasına əsaslanan təşəbbüslərin təşviqi baxımından səmərəli platforma olacağını bildirib. O, həmçinin qadınların sosial, siyasi və iqtisadi proseslərdə fəal iştirakının əhəmiyyətindən danışıb.

BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya bu il üç mühüm tarixin - Birləşmiş Millətlər Təşkilatının 80, Pekin Bəyannaməsinin 30 və Türkmənistanın daimi neytrallıq statusunun beynəlxalq səviyyədə tanınmasının 30 illik yubileylərinin qeyd edildiyini bildirib.

Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ölkələrində qadın hüquqlarının müdafiə edildiyini diqqətə çatdıraraq deyib ki, qızlar və qadınlar üçün pulsuz magistr proqramları, dünyanın aparıcı universitetlərində təhsil almaq üçün təqaüdlər təsis olunub. Hazırda xaricdə dövlət vəsaiti ilə təhsil alan tələbələrin 35 faizi qadınlardır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxışında qeyd edib ki, qadınların liderliyi, biliyi və təcrübəsi cəmiyyətin davamlı inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti, o cümlədən beynəlxalq layihələri barədə məlumat verərək bildirib: "Fond bir sıra ölkələrdə, eləcə də Çin, Gürcüstan, Misir, Rusiya, Rumıniya, Vyetnam və Niderlandda məktəblərin tikintisi və yenidən qurulması layihələri həyata keçirib. Pakistanda qızlar məktəbi və məktəb infrastrukturunun yenidən qurulması, eləcə də Keniya və Ruandada informasiya texnologiyaları avadanlığının təchizatı üzrə proqramlar icra edilib". O, həmçinin Burkina-Faso, Mali, Niger və Hondurasdakı layihələrlə qızların təhsilinə və inkişafına dəstək göstərildiyini vurğulayıb. Qadınların müasir cəmiyyətdə xüsusi yer tutmalarından məmnunluğunu ifadə edən Fondun vitse-prezidenti onların ailə dəyərlərini və mədəni ənənələrin qoruyucusu olduqlarını deyib.

Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyətinin elm, təhsil, səhiyyə, mədəniyyət və ekologiya kimi vacib sahələri əhatə etdiyini, ötən dövr ərzində bu istiqamətlərdə yerli və beynəlxalq layihələrin həyata keçirildiyini söyləyib. O, çıxışı zamanı ortaq dəyər olan Xəzər dənizinin səviyyəsinin əhəmiyyətli dərəcədə azalması probleminə də toxunaraq deyib: "Xəzərin səviyyəsinin azalması nərə balığı, qızıl balıq və suitilər kimi dəniz canlılarının həyatına ciddi təsir göstərir. Xəzər sularının çirklənməsi onların vəziyyətini ağırlaşdırmaqda davam edir. Bu, birlikdə mübarizə aparmalı olduğumuz qlobal problemdir və mən dənizimizi xilas edə biləcəyimizə inanıram".

Konfrans işini panel iclaslarla davam etdirib.



## Fondların birgə əməkdaşlığı dövlət siyasətinə töhfə verir

Son ilərdə Azərbaycanla Özbəkistan öz münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiblər. Ölkələrimiz arasında güclü siyasi dialoq qurulub və bu əsasda müxtəlif istiqamətləri əhatə edən əməkdaşlıq sürətlə genişlənir. Eyni zamanda, oxşar ənənələri, milli-mənəvi dəyərləri bölüşən cəmiyyətlərimizdə də qarşılıqlı əlaqələrin intensivləşməsinə böyük maraq var.

Bunun təsdiqi olaraq qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfrans çərçivəsində Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ilə görüşüb.

Görüş zamanı Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlər, o cümlədən Heydər Əliyev Fondu ilə Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun birgə əməkdaşlığının dövlətlərimizin yüksəksəviyyəli əlaqələrinə verdiyi töhfə vurğulanıb.

Türkmənistanda keçirilən beynəlxalq konfransın qadınların siyasi və iqtisadi həyata fəal cəlb olunmaları, çoxtərəfli dialoqun və tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb. Qadınların həyatımızın müxtəlif sahələrində, o cümlədən təhsil və səhiyyə sahələrindəki mövqelərinin gücləndirilməsinin davamlı inkişafın təmin edilməsi üçün vacibliyi qeyd olunub.

*Mübariz ABDULLAYEV*

# Azərbaycanın BMT-də növbəti uğuru

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) müstəvisində aktivliyi də xüsusi vurğulanmalıdır. Bunun nəticəsidir ki, ölkəmiz ən böyük beynəlxalq təşkilatın strukturlarında fəal təmsil olunur.

## Ölkəmiz təşkilatın iki komissiyasına üzv seçilib

Yeri gəlmişkən, bu günlərdə BMT-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikası BMT-nin Əhali və İnkişaf Komissiyasının (CPD) 2026-2030-cu illər üzrə və Sosial İnkişaf Komissiyasının (CsocD) 2025-2029-cu illər üzrə üzvlüyünə seçilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, hər iki komissiya BMT-nin iqtisadi və sosial məsələləri üzrə əsas orqanı olan ECOSOC-un funksional komissiyalarıdır. Hazırda ölkəmiz BMT ECOSOC-un 2025-2027-ci illər üzrə üzvləri arasında yer alır.

CPD əhali dinamikasının, demoqrafik dəyişikliklərin, miqrasiya və urbanizasiyanın, eləcə də dayanıqlı inkişafla bağlı beynəlxalq müstəvidə yanaşmaların formalaşdırılmasına məsuldur. CsocD isə sosial siyasət, sosial müdafiə sistemləri, həssas qrupların hüquqları və rifahın artırılması kimi istiqamətlər üzrə fəaliyyət göstərir.

Sözügedən BMT komissiyalarında təmsilçilik ölkəmizin sosial müdafiə islahatları, dövlət xidmətlərinin innovasiyası, yoxsulluğun aradan qaldırılması üzrə uğurları və əhalinin rifahının yüksəldilməsi sahəsindəki prioritetlərinin beynəlxalq müstəvidə təqdim edilməsinə, eləcə də BMT-nin fəaliyyətlərinə töhfə və əməkdaşlıq imkanlarının gücləndirilməsinə imkan verəcək. Bu, böyük etimaddır və beynəlxalq birliyin ölkəmizə olan rəğbətini təsdiqləyir.

Qeyd edək ki, Cənubi Qafqaz regionunda lider dövlət kimi çıxış edən, müstəqil xarici siyasət həyata keçirən Azərbaycan beynəlxalq müstəvidə səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Bu kontekstdə ölkəmizin beynəlxalq qurumlarla əməkdaşlığı xüsusilə qeyd edilməlidir. Daha da dəqiqləşdirsək, həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Həmçinin, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Ölkəmiz isə müxtəlif beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, onların funksionallığının artmasına davamlı töhfələr verir, qərarların qəbul və icra olunmasında mühüm rol oynayır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan qısa müstəqillik tarixində BMT Təhlükəsizlik Şurasına (TŞ) 2012-1013-cü illər üzrə qeyri-daimi üzv seçilib, sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrllik edib, Türk Dövlətləri Təşkilatında (TDT) öncül ölkələrdən birinə çevrilib, əksər regional təşkilatlarda uğurlu təmsilçiliyə malikdir.



O cümlədən, ölkəmizin BMT strukturlarına üzv seçilməsi də məmnunluq doğurur. Məlumdur ki, Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlığa böyük önəm verib. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. qeyd etmək olar.

## Azərbaycan təşkilatın strukturlarında fəal təmsil olunur

Bundan başqa, təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) ilə geniş əməkdaşlıq edir və bu məqsədlə 1994-cü ildə Azərbaycan Prezidentinin Sərəncamına əsasən ölkəmizin UNESCO nəzdində Milli Komissiyası təsis edilib. Yeri gəlmişkən, bu yaxınlarda UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 16-cı iclası keçirilib və həmin tədbirdə respublikamız təşkilatın Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib. 4 vakant yer uğrunda Azərbaycanla birgə 6 ölkə mübarizə aparıb. Rəqabət şəraitində keçirilmiş seçkilərin nəticəsində Azərbaycan səsvermənin ilk mərhələsində iştirak edən ölkələrin əksəriyyətinin səsini toplayıb. Azərbaycanın bu komitəyə üzv seçilməsi ölkəmizin mədəni irsin qorunması sahəsində beynəlxalq aləmdə formalaşmış müsbət imicinin, beynəlxalq platformalarda nümayiş etdirdiyi fəallığın və apardığı ardıcıl siyasətin göstəricisidir.

Sözügedən komitə silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunmasını təmin etmək, 1954-cü il Haaqa Konvensiyasının və onun İkinci Protokolunun tələblərinə əməl olunmasına nəzarət etmək, habelə dövlətlərə bu sahədə texniki, hüquqi və institusional dəstəyin göstərilməsini təşviq etmək məqsədilə yaradılıb. Azərbaycanın UNESCO-nun Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilməsini şərtləndirən digər bir mühüm amil də ölkəmizin reallıqları və Azərbaycan dövlətinin mədəni irsin qorunmasına verdiyi böyük önəmlə bağlıdır. Deyə bilərik ki, respublikamızda bu istiqamətdə davamlı və məqsədyönlü fəaliyyət həyata keçirilir. Azərbaycan abidələr diyarıdır və bu abidələr müxtəlif sivilizasiyalara aiddir.

## Ölkəmiz BMT-də islahatlar aparılmasının tərəfdarıdır

Bütün bunlarla yanaşı, Azərbaycan beynəlxalq ictimaiyyəti narahat edən müxtəlif məsələlər ilə əlaqədar BMT səviyyəsində qətnamələr də irəli sürüb. Məsələn, BMT-nin İnsan Hüquqları Komissiyasının (CHR) 58-60-cı sessiyalarında Azərbaycan nümayəndə heyəti tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə layihəsi təklif edilib. CHR tərəfindən qəbul edilmiş bu qətnamənin müddəaları beynəlxalq humanitar hüquq normaları əsasında qəbul edilməklə, beynəlxalq ictimaiyyətin diqqətini bu mühüm məsələyə yönəltmək məqsədi daşıyır.

Ötən illər ərzində Azərbaycanın BMT çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında, onun qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı da xüsusilə qeyd edilməlidir. Bu baxımdan respublikamız BMT TŞ-nin Terrorizmə qarşı Komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin komitəyə Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim edib.

Bütövlükdə, ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Bununla belə, Azərbaycan BMT-nin beynəlxalq müstəvidə təhdid və problemlərə qarşı lazımi səviyyədə mübarizə apara bilməsi üçün təşkilat çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir.

*Nardar BAYRAMLI*

# Münasibətlərin inkişafı üçün yeni imkanlar...

## ABŞ və Azərbaycan Zəngəzur dəhlizinin rifah və əməkdaşlıq körpüsünə çevriləcəyinə inanır

ABŞ-a səfəri çərçivəsində bu ölkənin Ticarət Departamenti katibinin müavinləri Vilyam Kimmitt və Ceffri Kessler ilə görüşən Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkələr arasında əməkdaşlıq perspektivlərini müzakirə edib, investisiya mühiti və iqtisadi imkanlar barədə məsləhətləşmələr aparıb. Bildirilib ki, Azərbaycan iqtisadiyyatının, qeyri-neft sektoruna, o cümlədən yeni sənaye və innovasiyalar, texnologiyalar bölmələrinə xarici mənbələr hesabına sərmayə qoyuluşları artıb. Bunun əsas səbəbi isə investisiya iqliminin və etibarlılığın yüksəlməsidir.

V.Kimmitt Azərbaycanda əlverişli sərmayə mühitinin mövcudluğuna toxunaraq bu amilin ABŞ investorları üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırılıb. Azərbaycan və ABŞ arasında münasibətlərin yeni yol xəritəsi hesab edilən Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılmasını xatırladan amerikalı dövlət rəsmisi müəyyənləşən yeni hədəflərin icrası sayəsində tərəfdaşlığın daha da güclənəcəyinə inamını ifadə edib.

**Orta Dəhliz regional kommunikasiyaları birləşdirir**

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi təşəbbüskarlıq göstərir, dəstək verir. Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir texnologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır. Bu qətiyyətli siyasi kurs Vaşinqton tərəfindən yüksək dəyərləndirilir. Rəşad Nəbiyevlə görüşündə ABŞ Ticarət Departamentinin nümayəndələri arasında bu məsələ də əsas mövzulardan biri olub. Tərəflər Orta Dəhliz və Zəngəzur dəhlizinin inkişafı ilə bağlı görülən işlərə diqqət çəkərək "TRIPP" layihəsinin qısa zamanda istifadəyə verilməsi sayəsində bölgədə yeni geniş əməkdaşlıq formatının yaranacağına inandıqlarını vurğulayıblar.

Qeyd edilib ki, Orta Dəhlizin növbəti qovşağına çevrilməkdə olan Zəngəzur xətti beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək. Prezidentin bəyan etdiyi kimi yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.



**Süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlıq**

ABŞ Ticarət Departamenti katibinin müavinləri ilə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik sahələrində əməkdaşlıq imkanlarına da toxunulub. Qarşı tərəf ABŞ istehsalı olan rəqəmsal məhsulların Azərbaycana ixracında mövcud çətinliklərin aradan qaldırılmasına dəstək göstərməyə hazır olduğunu bildirib.

Qeyd edək ki, Azərbaycan və ABŞ arasında əldə olunmuş anlaşmaya əsasən, Amerikanın nəhəng maliyyə instututu olan "EXIM Bank" translogistika və innovasiya layihələrinə ölkəmizə maliyyə dəstəyi göstərmək, innovativ alətlərin tətbiqində birgə iştirakçı olacaq.

"Intel" şirkətinin vitse-prezidenti Sara Kemp ilə görüşdə süni intellekt və yüksək performanslı hesablama infrastrukturu, "ağıllı" mobillik və bu sahələrdə milli kadr hazırlığı üzrə əməkdaşlıq imkanlarını müzakirə edən R. Nəbiyev vurğulayıb ki,

Azərbaycan dördüncü sənaye inqilabının və süni zəka dövrünün tələbatlarına uyğun olaraq, startaplar, rəqəmsal texnologiyalar, innovasiyayönümlü sənaye layihələri, süni intellekt və "yaşıl iqtisadiyyat" transformasiyasında fəal rol oynayır. Bu prosesdə Amerikanın nəhəng "SpaceX" şirkəti dəstəkləyici və investiyayönümlü fəaliyyəti diqqəti cəlb edir. Hər iki qurum yeni texnoilogiyalar və sənaye quruculuğunda Azərbaycana hərtərəfli dəstək vermək niyyətini bəyan edib və bu, ümidverici perspektivlər süni zəka sektoruna sərmayələrin axınını təmin edəcək. Habelə, Amerikanın güclü iqtisadi dəstəyi və sərmayə təşviqləri sayəsində Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə və yeni bilik və bacarıqları ehtiva edən sahələrin inkişafına möhkəm baza yaranacaq. Ümumilikdə, ABŞ şirkətlərinin Azərbaycanın müasir innovasiyalar sektoruna da böyük marağı böyükdür və bu istiqamətdə fəal məsləhətləşmələr aparılır.

Amerikanın inovasiya şirkətlərinin Azərbaycanda regional ekosistem qurucluğunda iştirakı gözlənilir. Həmçinin ABŞ-la əməkdaşlıq çərçivəsində yaxın aylarda "Microsoft Business Platform" istifadəyə veriləcək.Bu platforma dövlət xidmətlərinin vahid pəncərə prinsipi ilə əlçatanlığını təmin edəcək.

Beləliklə, çoxistiqamətli əməkdaşlıq platformaları Azərbaycan iqtisadiyyatına ABŞ şirkətlərinin yeni axınlarına və ticarət-iqtisadi əlaqələrin yüksək səviyyəyə yüksəlməsini təmin edəcək.

*ELBRUS CƏFƏRLİ*

# Avropada “ASAN” mükafatı təqdim olunub

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rumıniya Hökumətinin Baş katibinin dəvəti əsasında Buxarest şəhərində səfərdədir.

“Report” xəbər verir ki, Dövlət Agentliyinin nümayəndə heyəti Rumıniya Hökumətinin Baş Katibliyinin təşkilatçılığı ilə keçirilən “Dövlət Sektorunda İnnovasiya Forumu”nda iştirak edib.

Açılış mərasimində Dövlət Agentliyinin sədri innovasiyaların və müasir texnologiyaların dövlət xidmətlərinin səmərəliliyinin artmasındakı rolu və bu istiqamətdə “ASAN xidmət” tərəfindən görülmüş işlər barədə məlumat verib.

Forum çərçivəsində Rumıniyada dövlət xidmətləri sahəsində tətbiq olunan innovativ həllərin təqdimatı, həmçinin seçilmiş layihələrin mükafatlandırılması mərasimi baş tutub.




“ASAN xidmət” Rumıniya Hökumətinin təşəbbüsü və dəvəti ilə bu ölkədə dövlət xidmətləri sahəsində həyata keçirilmiş layihələrin cari il üzrə qiymətləndirilməsində və mükafatlandırılmasında iştirak edib.

“ASAN xidmət” modelinin dövlət xidmətləri sahəsində innovasiyaların və rəqəmsal həllərin tətbiqi ilə əldə etdiyi qabaqcıl nailiyyətlərinə istinad edilərək müsabiqənin qaliblərindən biri Dövlət Agentliyi tərəfindən seçilib və qalibə xüsusi olaraq təsis olunmuş “ASAN” mükafatı təqdim olunub.

Xüsusi “ASAN” mükafatının qalibi Rumıniyanın Yaşı şəhəri tərəfindən həyata keçirilmiş layihə olub. Mükafatın qalibi olmuş layihənin nümayəndələri və Yaşı şəhər rəhbərliyi “ASAN xidmət” təcrübəsi ilə yerində tanış olmaq imkanı əldə edəcəklər.

“ASAN xidmət”ə dair mükafat ilk dəfə olaraq Avropa İttifaqı üzv ölkəsinin nümayəndələrinə təqdim olunub. Bundan öncəki dövrdə müvafiq mükafat Afrika qitəsində dövlət xidmətləri sahəsində qabaqcıl nailiyyətlər əldə etmiş dövlətlərin nümayəndələrinə təqdim edilib.

Forum çərçivəsində, həmçinin “ASAN xidmət”ə həsr edilmiş xüsusi sessiya keçirilib və Dövlət Agentliyinin nümayəndəsi tərəfindən müvafiq sahə üzrə ölkəmizin qabaqcıl təcrübəsi barədə geniş təqdimat edilib.

Səfər zamanı baş tutan tədbir və görüşlərdə Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov da iştirak edir.

# ABŞ hökuməti uçot faizlərini endirdi

## Qızılın və “Bitcoin”in qiyməti yenidən bahalaşır

Amerika Birləşmiş Ştatlarının mərkəzi bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) uçot faiz dərəcəsini illik 3,5-3,75 faiz aralığına endirib. FES-in Açıq Bazar Əməliyyatları üzrə Federal Komitəsinin bəyanatında qeyd edilir ki, qərar ölkədəki iqtisadi aktivlik və inflyasiya gözləntiləri fonunda verilib. Belə ki, ABŞ-da 2025-ci il üzrə ÜDM-in artımı proqnozunun 1,6 faizdən 1,7 faizə qədər artırılması, eləcə də inflyasiya proqnozunun 3 faizdən 2,9 faizə endirilməsi, habelə işsizlik üzrə proqnozun 4,5 faiz səviyyəsində sabit saxlanılması Federal Ehtiyat Sisteminin optimist ssenarilərə əsaslanaraq mövcud addımı atmasında mühüm rol oynayıb.

FES-in analitiklərinin fikrincə, ölkədaxili maliyyə bazarındakı meyillər, eləcə də qlobal iqtisadiyyatın ABŞ-ın investisiya sektorlarına mövcud təsirləri normal olmaqla, ölkədə yumşaq pul siyasətinin həyata keçirilməsinə imkan verir. Hazırkı qərarı da onu göstərir ki, ABŞ hökuməti cari ilin ikinci yarısından etibarən pul siyasətində aşağı stavkalı rejimə keçib. Təşkilatın oktyabr ayının 29-da elan etdiyi uçot dərəcəsi ilə müqayisədə faiz dərəcəsinin 0,25 faiz-bənd endirilməsi pul siyasətinin liberallaşdığına dəlalət edir.

### Dollar ucuzlaşmağa başlayıb

Ancaq bununla belə, FES rəhbərliyi Amerikanın bazar sektorlarında və iqtisadi bloklarda gərginliyin azalmadığını, iqtisadi artımın ürəkaçan faizdə irəliləmədiyini xatırladıb. Qurumun sədri Jerom Pauell bildirib ki, əmək bazarının vəziyyəti ilə bağlı göstəricilər və maliyyə-investisiya sektorlarında eniş riskləri narahatlıqları artırır. Yalnız, inflyasiya proqnozu üzrə ehtimallar nikbindir, 2026-cı ildə bu rəqəmin daha da azalaraq 2,4 faizə enəcəyi fərz edilir. FES məhz əlverişli inflyasiya mühitində bu addımı atmaqla iqtisadiyyatda müşahidə edilən geriləməni aradan qaldırmaq və maliyyə-bank sistemini daha aşağı uçot dəhlizi çərçivəsində iqtisadiyyata böyük pul axınlarını, investisiyalarını təşviq etmək istəyir.

Federal Ehtiyatlar Sisteminin faiz dərəcəsini azaltması özünü dərhal bank və maliyyə seqmentlərində göstərib, dollar digər aparıcı valyutalar qarşısında ucuzlaşıb. Belə ki, avro-dollar mübadiləsi 1.1644 səviyyəsindən 1.1707 səviyyəsinədək yüksəlib. İngilis funtu-dollar cütlüyü üzrə mübadilə isə 1.3326 həddindən 1.3392 həddinə qədər artım sərgiləyib. Habelə dollar-yapon yeni üzrə mübadilə 156.66 səviyyəsindən 155.48 səviyyəsinədək geriləyib.

Ancaq bu proses investisiya və səhm bazarında daha yaxşı reaksiyalarla müşayiət olunub. FES-in uçot dərəcəsi ilə bağlı qərarı birjalarda ən çox qızıla müsbət təsir göstərib. Sarı metalın beynəlxalq birjalarda bir unsiyasının qiyməti 4182 dollardan 4247 dollara qədər bahalaşıb. Kriptobazarda da müəyyən aktivlik müşahidə edilib.

Noyabrda müəyyən eniş göstərən virtual pul bazarda “Bitcoin” və digər kriptovalyutaların ucuzlaşması səngiyib. Həftənin əvvəlində 88-89 minə satılan “Bitcoin”in qiyməti artıq 93 minə yüksəlib. Pərakəndə kriptovalyuta bazarında əhval-ruhiyyə yaxşılaşır ki, bu da investorların kriptovalyutaya da marağını artıracaq.

### Səhmdarlar pul kisəsinin ağzını açır

Eləcə də Amerika fond indeksləri də əvvəlki yarım aylıq durğunluqdan sonra özünə gəlib, əksər səhmdarlar indekslərdə artımlar əldə ediblər. Bazarın ən böyük seqmentlərindən biri olan “Amazon.com Inc.”in səhmləri son bir gündə 1,7 faiz bahalaşıb. Bu, şirkətin investisiya yatırımları üçün əlavə motivasiya verib və “Amazon” səhmdarları Hindistandakı biznesini inkişaf etdirmək üçün 2030-cu ilin sonuna qədər 35 milyard dollar investisiya yatırmaq planlarını açıqlayıb. ABŞ-dakı səhm aktivliyi digər qlobal sərmayəçilərin də fəallığına səbəb olub. FES-in faiz siyasəti ilə bağlı situasiyalara həssas yanaşan beynəlxalq səhmdarlar dolların məzənnəsinin zəifləməsi fonunda səhm konvertasiyalarını artırlar. Kanada Bankı notlar və qiymətli kağızlar üzrə faiz dərəcəsini son bir ayda aşağı saxladığı halda, ötən gün 2,25 faiz səviyyəsində saxlayıb. İsveçrə Milli Bankının səhmlərində də dəyərlər nəzərə çarpıb.

Qeyd edək ki, ABŞ-da Tramp administrasiyasının iqtisadi baxışı və maliyyə siyasəti ucuz dollar, bahalı qızıl və səhmlər, rəqəmsal valyuta çərçivəsinə əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır. Bu baxımdan Federal Ehtiyat Sisteminin yumşaq pul siyasəti Amerika valyutasını ucuzlaşdırmaqla, rəqəmsal valyuta və qızıl birjalarını daha canlandırır.

Bu baxımdan ABŞ hökumətinin növbəti ildə də yumşaq pul siyasəti həyata keçirəcəyi istisna edilmir. FES rəhbərliyi bu, administrativ təzyiq kimi qarşılasa da, pul komitəsində Trampı dəstəkləyənlərin addımları hökumətin istəyinin reallaşmasına səbəb olur.

FES-dəki bəzi ekspertlərin səsləndirdikləri fikirlərə əsasən, uçot dərəcəsi 2026-cı ildə yenidən 0,25 faiz- bənd azaldılacaq.




*E.CƏFƏRLİ*

# Cəmil Həsənlinin məntiqinə “2” düşür

## Ən yaxşı halda tramvay altında qalan “üç” vermək olar...



Redikül müxalifətin çirkab dolu fəaliyyəti ifşa olunduqca, faktlar gün işığına çıxdıqca onların əsl üzü də pərdə arxasından boy göstərir. Onların xalqa qarşı hansı düşüncədə olmaları, xalqa münasibətdə hansı kriteriyalara “söykənmələri” özü hər şeyi deyir. Xəyanətkar qrupun bir dəfə də olsun özündə günah axtarmaması, özünü “süddən çıxan ağ qaşıq” hesab etməsi köhnə “şakərdir” - indiki halda isə onlar hətta nə danışdıqlarının fərqində deyillər. Məntiqlə məntiqsizlik arasındakı məsafəni belə itiriblər.

Məsələn, özünü “elm adamı”, “professor” hesab edən Cəmil Həsənlinin “müdafiə xarakterli mesajları” bu şəxsin məntiq(sizliyi)ni bütün çılpaqlığı ilə ortaya qoyur. Seçdiyi ifadələr, ritorika onun “siyasi obrazının” “şəklini çəkir”. Baş verənlərin günahını min yerə yozmağa çalışan, nəticədə isə xalqa, cəmiyyətə qarşı qəzəbini gizlətməyən Cəmil Həsənli deyir ki, “Əli Kərimlinin həbsi Azərbaycan cəmiyyətinin bütün paxırını açdı”.

Birincisi, özünü siyasətçi sayan, ən azından siyasətlə məşğul olduğunu iddia edən şəxsin xalqa, cəmiyyətə xitabən belə bir ifadə işlətməsi nə məntiqi, nə də etik cəhətdən düzgün sayıla bilməz - bu, Cəmil Həsənlinin əsl kimliyinin komponentidir. Çünki siyasətçinin müraciət etdiyi obyekt məhz xalqdır, cəmiyyətdir. “Cəmiyyətin paxırı” ifadəsi isə Cəmil Həsənlinin “siyasi düşüncə tərzi”nin ən bariz nümunəsidir. Cəmil Həsənli ən sadə məntiqlə düşünə bilsə anlayar ki, baş verənlər cəmiyyətin paxırını açmayıb - əksinə, cəmiyyət Əli Kərimli, Gültəkin Hacıbəyli, elə Cəmil Həsənlinin özünün paxırını açıb. Cəmiyyətə, dövlətə qarşı xəyanətkar mövqe seçmiş bu şəxslərin əsl siması məhz cəmiyyət tərəfindən ifşa olunur.

İkincisi, cəmiyyətə qarşı bu qədər hirsli olan Cəmil Həsənli niyə bir dəfə də olsun öz ətrafına irad bildirmir - demir ki, bu qədər “qara işlərdən” sonra cəmiyyətin üzünə çıxmaq olmaz. Azərbaycan cəmiyyətinə qarşı müharibə elan etmək yerinə, öz etdiklərini etiraf etsə, daha yaxşı və ən əsası, daha məntiqli olmazmı?

Cəmiyyət nəyi səhv deyir? - Cəmil Həsənlinin özünün də yazdığı kimi “Əli Kərimli gündüz müxalifətçilik edir, axşam gedib Ramiz Mehdiyevlə görüşürmüş”, “Xalq Cəbhəsində Əli Kərimlinin müavinləri gedib izahat verməlidir” kimi fikirlər səhvdirmi? Niyə də izahat verməməlidirlər? Axı, xaricdən, xüsusilə də Rusiyadan AXCP-yə axan pulların “sərfiyyat istiqamətləri” gün üzünə çıxmalıdır və bunun üçün də mütləq şəkildə hər kəsin, başda elə Əli Kərimlinin müavinlərinin, Cəmil Həsənlinin özünün izahatları alınmalıdır. Budurmu “cəmiyyətin paxırı”nın açılması? Cəmiyyət tələb edir ki, AXCP-nin bütün xəyanətləri açılsın. Bəli, Cəmil Həsənli, cəmiyyət sizin bütün paxırlarınızın açılmasını tələb edir. Mirzə Ələkbər Sabirdən gətirdiyi sitat isə Cəmil Həsənlinin böyük şairi də məntiqi cəhətdən anlaya bilmədiyinin göstəricisidir - Sabir bu şeri heç də Cəmil Həsənlinin anladığı kimi milləti aşağılamaq, onun təbirincə desək, “paxırını açmaq” üçün yazmamışdı...

Cəmil Həsənlinin yazdığı sosial şəbəkə statusundan başqa bir məqsəd də “boylanır” - o, hər şeyi Əli Kərimlinin üzərinə buraxmaqla özünü sudan quru çıxarmağa çalışır. “Milli şura”nın “günahsızlığını” sübuta yetirmək üçün etdiyi canfəşanlıq bunun bariz sübutudur. “Milli Şuranın yaranması elə də uzaq dövrün tarixi deyil. Əgər həmin dövrün qəzetlərinə diqqət yetirilsə, hər şey mətbuatın səhifələrində var” fikri də dediklərimizi təsdiqləyir. Bu fikirlərin açması budur ki, “milli şura”nın fəaliyyəti “şəffafdır”, qaranlıq işlər AXCP-də cərəyan edib.

Cəmil Həsənli yazır ki, “Görünür vaxtı ilə Universitetin hüquq fakültəsinə dərs deyən Mustafa müəllim Quliyev bunlara yaxşı məntiq dərsi deməyib”. Mustafa Quliyevi tanımasaq da, Cəmil Həsənlini, Əli Kərimlini, Gültəkin Hacıbəylini yaxşı tanıyırıq - Cəmil Həsənlinin özünün məntiqsizliyi bütün bariz sübutları ilə ortadadır. Bütün bunları nəzərə alaraq, Cəmil Həsənlinin məntiqinə “tramvay altında qalmış üç” yazmaq olar...

***P.S. O ki qaldı, Namizəd Səfərova, onun da “qiyməti” bəllidir - “müdafiə etməyə” çalışdığı partiyanın adını hıqqana-hıqqana bir saata yadına salması onun hansı məntiqə, hansı “qiymətə” və hansı düşüncəyə malik olduğunu göstərir...***

*SADİQ*

# Kiyev Vaşinqtonun təkliflərinə nə cavab verib?

Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. ABŞ Ukraynanın ərazi güzəştlərinə getməsinə çalışsa da, Kiyev buna hələ də müqavimət göstərməkdədir. Məlumatlara görə, Ukrayna ötən çərşənbə günü Tramp administrasiyasına ABŞ-ın Rusiya ilə münaqişənin həllinə dair son təkliflərinə cavab təqdim edib. CNN bu barədə mənbələrə istinadla məlumat yayıb. "Müzakirələr davam edir və Kiyevin son cavabında sənədlərə hansı dəyişikliklərin edildiyi hələ bəlli deyil", - deyə məlumatda bildirilir. Müzakirələrin mövzusu isə üç sənəddən ibarətdir: münaqişənin həllinə dair ümumi çərçivə; Ukrayna üçün təhlükəsizlik təminatları; Ukraynanın bərpasına dair plan.

## Ukrayna ərazi güzəştlərinə hazır deyil

Ukrayna Prezidenti Volodimir Zelenski də jurnalistlərə bildirib ki, Kiyev, Avropa tərəfdaşları və ABŞ hazırda sülh planı çərçivəsində üç sənədi müzakirə edirlər: "20 bənddən ibarət çərçivə sənədi var - maddələr Ukrayna, Avropa və dünyanın maraqlarına uyğun olaraq daim dəyişir. İkinci sənəd təhlükəsizlik zəmanətləri, üçüncüsü Ukraynanın müharibədən sonrakı bərpası haqqındadır". Zelenski Ukraynanın ərazi güzəştlərinə hazır olmadığını bir daha vurğulayıb. O, əlavə edib ki, ABŞ hələ Ukraynanı NATO-da görməyə hazır deyil, lakin sabit təhlükəsizlik zəmanətlərinin verilməsi ilə bağlı danışıqlar davam edir.

ABŞ-ın sülh planına isə Ukraynanın Avropa İttifaqına üzvlüyü və demilitarizasiya zonasının yaradılması daxildir. "The Washington Post" qəzeti bu barədə ABŞ, Ukrayna və Avropa rəsmilərinə istinadla məlumat yayıb. Məlumata görə, Vaşinqtonun münaqişənin həlli ilə bağlı təklifləri arasında Kiyevin 2027-ci ildə Avropa İttifaqına üzvlüyü və təmas xətti boyunca hərbsizləşdirilmiş zonanın yaradılması yer alıb. Bundan başqa, Ukrayna Silahlı Qüvvələrinin sayının 800 min nəfərlə məhdudlaşdırılması da nəzərdən keçirilir.

Birləşmiş Ştatlar, eyni zamanda, Zaporojye Atom Elektrik Stansiyasını öz idarəsi altına almaq, həmçinin Ukraynanın yenidən qurulması və onun iqtisadi inkişafı üçün sərmayədarlar cəlb etmək niyyətindədir.

## Tramp: Ukraynanın NATO-ya daxil olmayacağı aydın idi

Qeyd edək ki, bir müddət öncə ABŞ Prezidenti Donald Tramp ukraynalı həmkarı Volodimir Zelenskinin "özünü ələ alaraq" Vaşinqtonun hazırladığı sülh planına razılıq verməli olduğunu bildirib. Trampın sözlərinə görə, Putindən çox əvvəl Ukraynanın NATO-ya daxil olmayacağı aydın idi. NATO-nun sıralarının genişlənməsi məsələsinə gəldikdə, o, bunu edə biləcək çox ölkə qalmadığını vurğulayıb. ABŞ Prezidenti "Politico"ya verdiyi müsahibədə deyib ki, Zelenski Ukraynadakı müharibə ilə bağlı realist olmalıdır. Trampın belə bir mövqe nümayiş etdirməsi şəraitində Rusiyanın xarici işlər naziri Sergey Lavrov sülh prosesi ilə əlaqədar ABŞ-la danışıqların davam etdirilməsinə dair razılığa gəlindiyini açıqlayıb.

## Avropa liderləri Trampla müzakirələr aparıb

Bütün bunların fonunda Avropa ölkələri də sülh prosesində fəal rol oynamağa çalışırlar. Böyük Britaniyanın Baş naziri Kir Starmer, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Fridrix Mertsin ABŞ Prezidenti Donald Trampla telefon danışığı da bunun göstəricisidir. Telefon söhbəti zamanı liderlər ABŞ-ın rəhbərlik etdiyi sülh təşəbbüsü üzrə danışıqlar prosesinin hazırkı vəziyyətini müzakirə ediblər. Avropa liderləri Vaşinqtonun Ukraynada ədalətli və davamlı sülhə nail olmaq səylərini alqışlayıblar. Yaxın günlərdə sülh planı üzərində intensiv işin davam etdiriləcəyi qərara alınıb.

Yeri gəlmişkən, Avropa İttifaqı ölkələri Macarıstanın potensial vetosundan yayınmaq üçün Rusiyanın 210 milyard avroluq aktivlərinin müddətsiz dondurulması ilə bağlı qərarın qəbulunu sürətləndirmək niyyətindədir. "Financial Times" nəşri bu barədə mənbələrinə istinadla məlumat yayıb. Məlumata görə, Brüssel veto təhlükəsini aradan qaldırmaq üçün fövqəladə səlahiyyətlərlə bağlı qanunu tez bir zamanda qəbul etməyə çalışır.

Avropa Komissiyası dondurulmuş aktivlərdən əldə edilən gəlirləri növbəti iki il ərzində Ukraynaya təxminən 90 milyard avro kredit ayırmaq üçün istifadə etmək niyyətindədir. Nəşr qeyd edir ki, bu sxem Rusiya aktivlərinin 27 üzv dövlətinin yekdil səsi ilə uzadıla bilən altı aylıq dövrlər üçün deyil, qeyri-müəyyən müddətə dondurulmasını ehtiva edir. Brüssel rəsmiləri Kiyevə əlavə yardımın əleyhinə olan Macarıstanın sanksiyaların uzadılmasına mane olacağından ehtiyatlanır.



## Aİ-nin sammiti Ukrayna mövzusu ilə başlayacaq

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta isə bəyan edib ki, dekabrın 18-19-da keçiriləcək Aİ sammitində Ukrayna mövzusu da müzakirə olunacaq. Antonio Koşta görüşün məhz Ukraynadakı vəziyyətin müzakirəsi ilə başlayacağını bildirib: "Biz iki məsələyə əsas diqqət yetirərək vacib müzakirələr aparacağıq: Ukrayna və qitəmizdəki təhlükəsizlik, eləcə də Avropa İttifaqının 2028-2034-cü illər üçün çoxillik maliyyə proqramı". Onun sözlərinə görə, müzakirə "Avropanın maraqlarını qorumağa və Ukraynanın danışıqlar mövqeyini gücləndirməyə ən yaxşı şəkildə necə davam etməyə" həsr olunacaq. "İkincisi, növbəti çoxillik maliyyə çərçivə Sazişinə diqqət yetirməyimizi istərdim. Danimarka sədrliyi hazırlıq işlərində əhəmiyyətli irəliləyiş əldə edib. Bizim müzakirələr əldə edilən irəliləyişə yekun vurmaq və danışıqların növbəti mərhələsi üçün istiqamətləri müəyyən etmək üçün bir fürsət olacaq. 2026-cı ilin sonuna qədər növbəti çoxillik maliyyə planı və onun maliyyələşdirilməsi ilə bağlı razılığa gəlmək üçün intensiv iş tələb ediləcək. Bu cədvələ riayət etmək vacibdir", - deyə Koşta vurğulayıb.

O qeyd edib ki, üzv dövlətlərin liderləri tərəfindən müzakirə ediləcək məsələlər arasında Aİ-nin genişlənməsi perspektivi, geoiqtisadi vəziyyət və onun İttifaqın rəqabət qabiliyyətinə təsiri, Yaxın Şərqdəki vəziyyət, Avropa müdafiəsi və təhlükəsizliyi və miqrasiya da var. Bu müzakirələr zamanı Ukraynanın Aİ-yə üzvlük məsələsinin də diqqət mərkəzində olacağı gözlənilir.

*N.BAYRAMLI*

# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin "Kilimancaronun qarı" hekayəsi haqqında

*əvvəli ötən saylarımızda*

Amma ömrünün son illərini ruh düşkünlüyü içərisində yaşayan Heminqueyin öz aqibəti də faciə ilə sonuclandı; əcəba, yazdıqlarıyla yanaşı yazmadıqlarının, yaza bilmədiklərinin acısını yaşayan və ömrünü intiharla bitirən Heminquey elə Harri deyildimi?.."

Yeri gəlmişkən deyim ki, Mahir N. Qarayevin bir neçə il qabaq işıq üzünə çıxardığı "Sonuncu korifey" romanının mərhum prototipini yaxından tanıdığımız başıbəlalı, talesiz qəhrəmanı da cəmi səkkiz səhifəlik bir əsərə bütün bildiklərini, həyatın bütün ali həqiqətlərini sığdırmaqla dünya ədəbiyyatının ən uca zirvəsinə bayraq sancmaq arzusunda, bununla da söz sənətinə yekun vurmaq, möhür vurmaq iddiasındadır...

***

Əlbəttə, Harri Smit avtobioqrafik obrazdır. Zaman-zaman bədbinliyə, xurafata qapılan müəllif onu hansısa ağır yükdən qurtulmaq üçün yaradıb, yaradıcılıq terapiyası üsuluyla dərdini-azarını alter-eqosuna yükləməklə azad ruhunun qalasını cin-şəyatin basqınından qoruyub.

"Kilimancaronun qarı" hekayəsi 1936-cı ildə dərc olunub. Həmin il bircə ay fərqlə yazıçının daha bir misilsiz incisi - haqqında əvvəllər danışdığımız "Frensis Makomberin uzun sürməyən xoşbəxtliyi" hekayəsi də işıq üzü görmüşdü. Amerikanın üzərinə qara buludtək çökmüş böyük depressiya illərində, Avropanı faşizm dalğası bürüdüyü bir dönəmdə Heminquey kimi həssas yaradıcı insanın əmin-arxayın dolandığını, rahat keçindiyini təsəvvürə gətirmək çətindir. Çox güman, həmin illərdə yazıçı güclü psixoloji sarsıntı, dərin yaradıcılıq böhranı keçirib - haqqında danışdığımız hekayədə bunun əlamətləri aşkar görünür. Əminəm ki, müəllif Amerikanın, Avropanın mənəvi atmosferini zəhərləmiş şər vulkanının boğanağından adını çəkdiyim iki misilsiz hekayənin ruhunu mayalandırdığı Afrika havasının sayəsində qurtulub. Yoxsa sonrakı illərdə bir-birinin ardınca yeni gözəl əsərlər, nəhayət, "Qoca və dəniz" kimi dünya söz xəzinəsinin qızıl fonduna düşmüş ölməz şedevr yarada bilməzdi.

Yaradıcılıq terapiyası - insan beyni, insan sinirləri üçün ən effektiv müalicə üsulu, yeganə ziyansız dərmandır. Sual yarana bilər ki, bəs bu dərman Heminquey kimi şöhrətli yazıçını niyə intihardan çəkindirmədi? Əlbəttə, haqlı sualdır, ancaq unutmaq olmaz ki, Heminquey 62 yaşına məhz o müalicənin, o dərmanın hesabına gəlib çatmışdı. 1951-ci ildə yazdığı "Qoca və dəniz" povestindən sonra yenidən yaradıcılıq böhranına düşmüşdü, ruhuna iş tapmamışdı, ömrünün qalan on ilində qələmindən dişədəyər bir şey çıxmamışdı. Bu boşluğu nə "Kilimancaro"nun uğurlu ekran versiyası, nə də çox arzuladığı Nobel mükafatı doldurmuşdu. Bir sözlə, hansısa mövhumi qüvvələrin təhrikiylə yaradıcılıq terapiyasına ara verən, içindəki qazıntı işlərini dayandıran yazıçı bir daha əvvəlki halına qayıtmamışdı, onun ruhu bədənindən cüda düşmüşdü, dövrünün ən adlı-sanlı həkimləri belə o ruhu o bədənlə barışdıra bilməmişdilər. Harri Smitin ayağından başlanan qanqrena Ernest Heminqueyin beyninə işləmişdi.

Bundan sonra ruhu qəfəsdən buraxmaq, saf ürəyin məzarına dönmüş bədəni əzəl adlı goreşənə təhvil vermək qalırdı. Kilimancaronun qarı - yurdundan qovulmuş sərgərdan ruhun təşnəsi olduğu əbədi sükunət, sakitlik, dinclik rəmzidir. İnanmaq istərdim ki, o saf ürək, didərgin ruh Kilimancaronun zirvəsindəki əbədi qar cənnətində, gün işığında bərq vuran ağappaq sükut içində, yuxusu buz bağlamış xallı bəbirin qonşuluğunda gecə-gündüz bilmədən, yorulmadan, usanmadan şad-xürrəm dincəlməkdədir.



*F.Uğurlu*

# Gürcüstan Strasburq Məhkəməsinin qərarı ilə bağlı bəyanat yayıb



Strasburq Məhkəməsinin bugünkü qərarı ilə Böyük Palata Gürcüstanın hüquq-mühafizə orqanlarının əməkdaşlarına və dövlət orqanlarına hücum və ya basqın olduqda dövlətin xüsusi vasitələrdən qanuni istifadə etmək hüququna malik olduğunu bir daha təsdiqləyib. Qərarda, həmçinin qeyd olunur ki, iyunun 20-də keçirilən nümayiş zamanı parlamentə qarşı eskalasiya və basqınlar müxalifət siyasətçiləri tərəfindən təşviq edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə 2019-cu il iyunun 20-də baş vermiş hadisələrlə bağlı Strasburq Məhkəməsinin qərarı ilə bağlı Gürcüstan Ədliyyə Nazirliyinin açıqlamasında qeyd olunub. Bildirilir ki, 2019-cu il 20 iyun hadisələri ilə bağlı Gürcüstan Daxili İşlər Nazirliyinin ovaxtkı rəhbərliyi nümayişçilərə qarşı proporsional güc tətbiqini təmin etmədiyinə görə Strasburq Məhkəməsi Avropa Konvensiyasının maddələrinin pozulmasını müəyyən edib. Məhkəmənin qərarında, həmçinin qeyd olunub ki, 20 iyun nümayişi zamanı eskalasiya və parlamentə hücum müxalif siyasətçilər tərəfindən təşviq edilib.

Avropa Məhkəməsinin qərarına görə, dövlətin tətbiq etdiyi güc və xüsusi vasitələr hərəkətləri zorakılıq xarakteri daşıyan nümayişçilərə yönəldilmiş idi. Müvafiq olaraq, Daxili İşlər Nazirliyinin ovaxtkı rəhbərliyi tərəfindən bu standarta əməl olunmaması və nümayişçilərə qarşı proporsional güc tətbiqi təmin olunmadığı üçün Avropa Konvensiyasının 3-cü (pis rəftar), 10-cu (ifadə azadlığı) və 11-ci (sərbəst toplaşmaq azadlığı) maddələrinin pozulması müəyyən edilib.

"Gürcüstan hökuməti Palatanın 7 may 2024-cü il tarixli qərarı ilə müəyyən edilmiş təhqiqatın nöqsanlarını nəzərə alıb və müvafiq addımlar atıb. 2025-ci il noyabrın 12-də Gürcüstan Prokurorluğu ölkənin keçmiş daxili işlər naziri Giorgi Qaxariyaya qarşı cinayət təqibinə başlayıb. Faktla bağlı araşdırmalar davam etdirilir", - deyə Ədliyyə Nazirliyinin məlumatında bildirilir.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Dünənimiz, bu günümüz və gələcəyimiz...



## Azərbaycançılıq ideologiyası beynəlxalq münasibətlərdə də özünü göstərir

Xalqımızın tarixin çoxsaylı dönəmlərindən süzülüb gəlmiş mədəniyyətini, dilini, adət-ənənələrini və dövlətçilik ənənələrini qorumaqda azərbaycançılıq ideyası vacib rol oynayıb. Bu ideya əsrlər boyu müxtəlif dövrlərdə dəyişən, ancaq əsas prinsiplərini qoruyub saxlayan bir həyat tərzidir. Azərbaycanın dünəni, bu günü və gələcəyi Azərbaycançılıq ideyasının işığında yenidən formalaşır.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında bu ideologiyanın geniş yayılması 1993-cü ildən etibarən həyata keçirilməyə başladı. İlk vaxtlar ölkə daxilində mövcud olan problemlər, siyasi xaos, iqtisadi tənəzzül, müharibənin davam etməsi və s. ciddi nailiyyətlər qazanmağa imkan verməsə də, aparılmış ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olaraq 1990-cı illərin sonlarında bu sahədə əsaslı dönüş yaratmaq mümkün oldu. Məhz bu dövrdən etibarən dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız azərbaycançılıq ideologiyası ətrafında birləşməyə başladılar. Bu gün də onlar bu ideya ətrafında sıx birləşib azərbaycançılığı qoruyub saxlamaqdadırlar.

### Davamlı mübarizə aparılıb

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, Sovet dövrü ərzində azərbaycançılıq ideyasının bir çox aspektləri məhdudlaşdırılsa da, xalqın kollektiv yaddaşında və mədəniyyətində öz kökünü itirməyib: “Kimliyimizin qorunması, dilin inkişafı və mədəniyyətimizin yaşadılması üçün davamlı bir mübarizə aparılıb.

Bu gün də Azərbaycan müstəqil bir dövlət olaraq öz kimliyini və mədəniyyətini qoruyur, gücləndirir və dünyaya tanıdır. Azərbaycançılıq ideyasının bugünkü ifadəsi həm müstəqil dövlətin daxili siyasətində, həm də beynəlxalq münasibətlərində özünü göstərir. Müstəqilliyimizin əldə olunmasından sonra, xüsusilə 1990-cı illərin ortalarından başlayaraq, dəyərlərimizi qorumaq və inkişaf etdirmək istiqamətində ardıcıl addımlar atıb”.

### İdeologiyamızın müasir dövrdəki təzahürləri

K.Cəfərov qeyd edib ki, Azərbaycanda həyata keçirilən sosial və iqtisadi islahatlar, milli təhsil sisteminin inkişafı, mədəniyyətin və sənətin modernləşdirilməsi azərbaycançılıq ideyasının müasir dövrdəki təzahürləridir: “Ən vacib addımlardan biri, əlbəttə ki, Azərbaycan dilinin dövlət dili olaraq möhkəm qorunması və təbliğidir. Azərbaycançılıq dilin və mədəniyyətin qorunması ilə yanaşı, həm də xalqın öz tarixi və müstəqil dövlətçiliyinə olan bağlılığını gücləndirir”.

Deputatın sözlərinə görə, Azərbaycanın xarici siyasətində də azərbaycançılıq ideyasının əhəmiyyəti böyükdür: “Azərbaycan regionda və dünyada özünə hörmət qazanan bir dövlət olaraq maraqlarımızı qorumağa davam edir. Bu, yalnız siyasi və iqtisadi sahələrdə deyil, həm də mədəni diplomatiya, beynəlxalq əməkdaşlıq və regional təhlükəsizlik məsələlərində özünü göstərir”.

### Gənclərimiz azərbaycançılıq ətrafında sıx birləşib

Millət vəkili qeyd edib ki, Azərbaycançılıq ideyasının gələcəyi ölkənin qarşısında duran böyük çağırışlarla üz-üzədir: “Bu çağırışların ən böyüklərindən biri, dövlətimizin qlobal dünyada öz yerini tapmasıdır. Xüsusilə, iqtisadi, mədəni və texnoloji inkişaf sahələrində daha da irəliləmək, dünya miqyasında Azərbaycanın gücünü artırmaq üçün bu ideyanın davamlı olaraq təbliğinə ehtiyac var.

Azərbaycançılığın gələcəyi eyni zamanda gənc nəslin yetişdirilməsinə də bağlıdır. Müasir dünyada informasiya texnologiyalarının, mədəniyyətlərarası əlaqələrin və qlobal məsələlərin sürətlə dəyişdiyi bir dövrdə, gənclərin kimliyimizi qorumaları vacibdir. Bu gün Vətənə bağlı, azərbaycançılıq ideologiyası əsasında tərbiyə olunan gənclərimiz ölkənin inkişafı üçün bütün gücünü səfərbər edib. Gənclər dövlətimizin gələcəyidir və bu gün dövlət strukturları onlara etibar edilir. Onlar dünyada bayrağımızı dalğalandırırlar, sərhədlərimizi ayıq-sayıq qoruyurlar. Ölkəmizdə bilikli, bacarıqlı, vətənpərvər gənc nəslin yetişməsi onu deməyə əsas verir ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir və qazandığımız müstəqillik əbədi olacaq. Çünki gənclər güclü bir ideologiya - azərbaycançılıq ideologiyası ətrafında sıx birləşib irəliləyirlər.

Azərbaycançılıq ideyasının gələcəyinə böyük təsir edən digər amil ölkənin müxtəlif xalqları arasında qarşılıqlı hörmətin və birlik ruhunun qorunmasıdır. Bu, Azərbaycanın çoxmillətli bir dövlət kimi sosial və mədəni zənginliyini daha da möhkəmləndirəcək”.

***Yeganə***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə hazırlanmışdır**

# Dubayda 31-ci şopinq festivalı başlayıb



Dubayda 31-ci “Dubai Shopping Festival” (DSF) başlayıb. Bu nəhəng şəhər şopinq festivalı 2026-cı il yanvarın 11-dək davam edəcək.

Bu barədə AZƏRTAC-a Dubay İqtisadiyyat və Turizm Departamentindən məlumat verilib.

38 gün ərzində festival iştirakçılarını dünya səviyyəli alış-veriş imkanları, eksklüziv endirimlər, geniş əyləncə proqramları, möhtəşəm lotereyalar və müxtəlif tematik ailə tədbirləri gözləyir. DSF Dubayın qış turizmi, müasir pərakəndə satış və şəhər əyləncələrində aparıcı mövqeyini təsdiqləyərək, otuzillik inkişaf və innovasiyaların parlaq göstəricisinə çevrilib.

1996-cı ildən keçirilən festival cəsarətli pərakəndə satış təşəbbüsündən qlobal mədəni fenomenə qədər uzun yol keçib. “Dubai Festivals and Retail Establishment”in baş direktoru Əhməd Əl Haccın sözlərinə görə, üç onillik ərzində DSF Dubayı qlobal səhnədə tanıtmaq üçün mühüm alət rolunu oynayıb və şəhərin dünyanın ən yaxşı biznes və səyahət məkanlarından biri kimi mövqeyini gücləndirərək D33 iqtisadi strategiyasının məqsədlərinə töhfə verib.

Bu il festival çərçivəsində bir sıra yeniliklər təqdim olunur. Ən diqqətçəkən şoulardan biri yüz pirodron daxil olmaqla, minədək dronun gecə səmasını atəşfəşanlıqla sinxron işıqlandıracağı nadir təqdimatlardır. Bu möhtəşəm, tamamilə pulsuz şoular festival müddətində şəhər üfüqünü parlaq işıq panoramasına çevirəcək.

DSF-də “Auto Season” ötənilki uğurunu davam etdirərək yenidən ziyarətçilərin ixtiyarındadır. Bu layihə yalnız avtomobil sərgisi deyil, həm də avtomobil həvəskarlarının ünsiyyət qurduğu, təcrübə mübadiləsi apardığı və sürücülük mədəniyyətinə olan maraqlarını bölüşdüyü canlı platformadır.

“e&MOTB” festivalı isə bir daha “Dubai Design District”i dinamik açıq məkana çevirəcək. Bu il qonaqları 100-dən çox eksklüziv məhsul, 27 yeni yemək konsepsiyası və əsasən yerli sahibkarların təmsil olunduğu 56 pərakəndə satış layihəsi gözləyir. Burada, həmçinin pulsuz konsertlər, interaktiv incəsənət nümunələri və yeni baxış nöqtələri təqdim olunacaq. Yenilənmiş məkan “e&MOTB”nin gənclərin sevimli görüş nöqtəsi statusunu qoruyub saxlayır.

Təbiətdə istirahətə üstünlük verənlər üçün “DSF x Hatta” xüsusi seçimdir. Dağ mənzərələri fonunda açıq hava konsertləri, immersiv “Hatta Lights” marşrutları, kulinariya şouları, atəşfəşanlıq nümayişləri və uşaqlar üçün müxtəlif əyləncələr təşkil olunacaq. Ziyarətçiləri, həmçinin genişmiqyaslı satışlar, məhdud kolleksiyalar və yerli dizaynerlərlə dünya brendlərinin iştirak etdiyi pop-up bazarlar gözləyir. Məşhur kütləvi bazar brendlərindən konsept butiklərinə qədər 1 mindən çox pərakəndə satıcı mövsümi endirim kampaniyasına qoşulacaq.

# Cüdoçularımız 2025-ci ildə beynəlxalq yarışlarda 253 medal qazanıblar

2025-ci ildə Azərbaycan cüdoçuları beynəlxalq yarışlarda 253 medal qazanıblar.

Bu barədə “Report”un sorğusuna cavab olaraq Azərbaycan Cüdo Federasiyasından (ACF) məlumat verilib.

İl ərzində müxtəlif yaş qrupları üzrə fərdi və komanda yarışlarında idmançılar 76 qızıl, 61 gümüş, 116 bürünc mükafata sahib çıxıblar:

“2025-ci ildə ölkəmiz Bakıda “Böyük Dəbilqə”, Qubada isə yeniyetmələr arasında Avropa Kubokuna ev sahibliyi edib. Bakıdakı “Böyük Dəbilqə”də idmançılarımız 1 qızıl, 1 gümüş, 3 bürünc, Qubadakı Avropa Kubokunda 3 qızıl, 6 gümüş, 9 bürünc medal qazanıblar. Abşeron Olimpiya İdman Kompleksində Avropa Cüdo Ümidləri Turniri və Kodokan mütəxəssislərinin iştirakı ilə texniki sessiyalar keçirilib”.

Azərbaycan cüdoçularının ölkədə keçirilmiş III MDB Oyunlarında da yüksək əyarlı mükafatlar qazandığı vurğulanıb:

“Cüdoçularımız fərdi yarışlarda 5 qızıl, 7 gümüş, 9 bürünc (cəmi 21 medal) qazanıb, qarışıq komanda yarışında isə çempion olub. Şimali Makedoniyada keçirilən EYOF-da yeniyetmə cüdoçularımız fərdi yarışlarda həm medalların sayına, həm də əyarına görə birinci yeri tutublar. Eyni ölkədə keçirilən yeniyetmələrin Avropa çempionatında komanda hesabında medalların əyarına görə ikinci, oğlanlar arasında birinci yeri tutan milli yığma 3 qızıl, 1 gümüş, 2 bürünc medal əldə edib. Bolqarıstanda yeniyetmələrin dünya çempionatında komandamız 2 bürünc medal qazanıb”.

Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında cüdoçular fərdi yarışlarda 2 qızıl, 2 gümüş, 5 bürünc medal əldə edib, qarışıq komanda yarışında isə çempion olub:

“Bu nəticə böyüklər arasında qarışıq komandada Azərbaycan cüdo tarixinin ilk çempionluğudur. Moldovada keçirilən U-23 Avropa çempionatında millimiz 2 qızıl, 1 gümüş, 1 bürünc medalla həm ümumi komanda, həm də kişilər arasında birinci yeri tutub. Gənclər arasında Avropa çempionatında 2 qızıl, 1 bürünc, dünya çempionatında isə 1 bürünc medal qazanılıb. Macarıstanda böyüklər arasında dünya çempionatında Azərbaycan millisi 3 bürünc, Monteneqroda Avropa çempionatında 1 gümüş və 4 bürünc medala yiyələnib”.



ACF il ərzində görülən digər işlər barədə də məlumat verib:

“Cüdo tarixində ilk dəfə Macarıstanda keçirilən dünya çempionatında Azərbaycan Cüdo Federasiyasının A kateqoriyalı beynəlxalq dərəcəli hakimi Nazim Umbayev ədalət təmsilçiləri sırasında yer alıb. Çempionatın son günündə Beynəlxalq Cüdo Federasiyasının bayrağı 2026-cı ildə dünya çempionatına ev sahibliyi edəcək Azərbaycana təqdim olunub.

2025-ci ildə ACF ölkə üzrə cüdonun kütləviliyinin, infrastrukturunun və idarəçiliyinin gücləndirilməsi istiqamətində fəaliyyətini davam etdirib. Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Qax, Tərtər, İmişli, Zaqatalanın Mosul kəndi və Şabranda Cüdo Təlim Mərkəzləri açılıb, Azərbaycan İdman Akademiyasında yenilənmiş cüdo zalı istifadəyə verilib. 2022-ci ildən bəri Bakı və regionlarda 156 idman zalına təxminən 12 min tatami paylanıb, bu zallarda 2300-dən çox yeniyetmə və gəncin cüdo ilə məşğul olması üçün şərait yaradılıb.

Beynəlxalq təcrübəyə əsasən hazırlanan qaydalar üzrə klubların lisenziyalaşdırılması prosesi davam edib və bu günədək 206 idman təşkilatına lisenziya verilib.

Beynəlxalq Cüdo Federasiyası Akademiyasının məşqçi hazırlığı proqramına Azərbaycan, Gürcüstan və Özbəkistandan 48 məşqçi qatılıb. İndiyədək proqram çərçivəsində 245 yerli məşqçi təhsil alıb, onlardan 168-i imtahanları uğurla verərək beynəlxalq diplom əldə edib. ACF, Azərbaycan İdman Akademiyası və Böyük Britaniyanın Hertfordşir Universiteti arasında Anlaşma Memorandumu əsasında cüdo məşqçiliyi üzrə təhsil proqramları davam etdirilib.

Azərbaycanda ilk dəfə adaptiv cüdo turniri təşkil olunub. Milli Komandaların Təlim-Məşq Mərkəzində keçirilən turnirdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak edib, layihə onların sosial inteqrasiyası və fiziki aktivliyinin artırılmasına xidmət edib. “Kata for All” festivalı, Kodokan mütəxəssislərinin iştirakı ilə seminarlar, həmçinin məşqçilər üçün ilkin tibbi yardım, fiziki hazırlıq, hakimlik qaydaları və sosial medianın düzgün istifadəsi mövzularında təlimlər gerçəkləşdirilib.

2025-ci ildə ACF tərəfindən təşkil olunan yerli yarışlarda bütün yaş qrupları üzrə ümumilikdə 8500-ə yaxın cüdoçu mübarizə aparıb. Ölkədə cüdo ilə məşğul olanların sayı rekord həddə çataraq 21 min nəfəri ötüb. Cüdo Liqa yarışlarının tətbiqi ilə yeni potensiallı idmançıların aşkarlanması, klublar arasında sağlam rəqabət və əməkdaşlıq, idmançı və məşqçilərə maddi dəstək, eləcə də infrastrukturun gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb”.

## Elan

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecinin I kurs tələbəsi Əlili Bahar Teyyub qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2515**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova